ISSN:2148-2292

Akademik Tarih ve Düşünce Dergisi, 2019, 6 (2), ss 817-832

Academic Journal of History and Idea, 2019, 6 (2), pp 817-832

Araştırma Makalesi
Original Article

# Azerbaycan Cumhuriyeti'nin Güneydoğu Bölgesinde Sağlık Hizmetlerinin Organizasyonu ve Gelişimi (2003-2018)

**Emin Melikov***

**ORCID: 0000-0002-2082-079X**

**Öz**

Makale, 2003-2018 yılları arasında ülkenin güneydoğu bölgesindeki sağlık organizasyonu ve sağlık altyapısına odaklanmaktadır. Bu dönemde, bölgede modern sağlık tesisleri inşa edildi ve sağlık koruma çalışmaları başarıyla uygulandı. Cumhurbaşkanı İlham Aliyev'in talimatı doğrultusunda, bölgedeki sağlık sisteminin modernizasyonu ve uluslararası satandartlara adaptasyonu olumlu bir sonuç verdi. Nüfusun sağlığını korumak için sağlık otoriteleri tarafından sürekli muayeneler düzenlendi ve aşkarlanan hastalıklar yerinde tedavi edildi. Devlete imtiyazlı erişimi olan hastalara zamanında ilaçları verilmiştir. Makalenin yazılmasında amac Azerbaycan Cumhuriyetinin gerçekleştirdiyi başarılı saglıq politikası Cümhuriyetin Güney-Doğu bölgəsi bazında bilimsel olaraq araştırmaktır. Bölgədə oluşturulan uluslararası sağlıq kurumları yerel nüfusun sosiyal refahının iyiləştirilməsinə yardımçı olmuştur.

**Anahtar kelimeler:** Lenkeran, Masallı, Yardımlı, Lerik, Astara, Celilabad

**Gönderme Tarihi: 01/05/2019** **Kabul Tarihi:23/06/2019**

*Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix İnstitutunun elmlər doktoru proqramı üzrə dissertantı, tarix üzrə fəlsəfə doktoru, E-Posta:eminmelikov79@gmail.com*

© ATDD Tüm Hakları Saklıdır

# The organization and development of health services in the south-eastern part of the Azerbaijan Republic (2003-2018)

**Emin Melikov**
**ORCID: 0000-0002-2082-079X**

## Abstract

The article deals with the establishment of the healthcare organization and health infrastructure in the south-eastern part of the republic in 2003-2018. In this period, modern healthcare facilities have been built in the region and the health protection wosk has been successfully implemented. According to President Ilham Aliyev's instructions, the modernization and adaptation of the health care system in the region have given a positive result. In order to protect the population health, regular inspections have been organized by health authorities and the detected deseases have been cured on the spot. The patients with privileged access to state care have been provided with medication in time. The purpose of article is studying of the successful policy of health care pursued by the Azerbaijan Republic on the basis of a southeast part of the republic. Modern medical institutions in the region helped to improve social security of local population.

**Key words:** Lankaran, Masalli, Yardimli, Lerik, Astara, Calilabad

**Received Date: 01/05/2019** **Accepted Date: 23/06/2019**

# Формирование и развитие службы здравоохранения в юго-восточном регионе Азербайджанской Республики (2003-2018 гг.)

**Резюме**

Статья посвящена формированию службы и установлению инфраструктуры здравоохранения в юго-восточном регионе республики в 2003-2018 гг. В этот период в регионе были построены современные медицинские учреждение, и были успешно выполнены работы по охране здоровья населения. По поручению президента Ильхама Алиева модернизация и приспособления к международным стандартам системы здравоохранения дала положительные результаты в регионе. Со стороны органов здравоохранения регулярно был организован мониторинг в целях охраны здоровья населения и проводилось лечение обнаруженных на месте болезней. Привилегированные пациенты своевременно обеспечивались медикаментами за счет государств. Основной целью автора статьи являются: научное изучение успешной политики, проводимой руководством Азербайджанской Республики в области здравоохранения и деятельности учреждений здравоохранения в юго-восточном регионе страны. Автор статьи пришёл к такому выводу, что учреждения здраво-охранения международного характера, созданные в этом регионе республики, ныне способствуют улучшению социального благосостояния населения.

**Ключевые слова:** Ленкорань, Масаллы, Ярдымлы, Лерик, Астара, Джалилабад

**Получено: 01/05/2019** **Принято: 23/06/2019**

## Giriş

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən regionların sosial-iqtisadi inkişafı üzrə I, II, III Dövlət Proqramlarına uyğun olaraq bölgədə yeni xəstəxanalar inşa edilmiş, tibbi xidmət təkmilləşdirilmiş, əhalinin sağlamlığının qorunmasında əsaslı işlər görülmüşdür. Səhiyyə xidməti sahəsində həyata keçirilən profilaktik tədbirlər nəticəsində əhalidə müxtəlif xəstəliklər aşkar edilərək müalicə işi bölgələrdə uğurla həyata keçirilmişdir. Səhiyyə sistemi hər il yenilənərək "1+3" formatında hazırlanan "iqtisad-sosial inkişaf konsepsiyası və Praqnoz" göstəricilər sənədi ilə müəyyənləşirilir. Ölkə başçısı cənab İlham Əliyev çıxışlarında dəfələrlə vurğulamışdır ki, "... biz artan iqtisadi imkanlarımızı ilk növbədə sosial sahənin inkişafına o cümlədən səhiyyənin problemlərinin həllinə yönəltməliyik".[1] Bu illər ərzində "Qanın, qan komponentlərinin donorluğu" və qan xidmətlərinin inkişafına dair Dövlət Proqramı", "Hemofiliya və talasemiya irsi qan xəstəliyi üzrə Dövlət Proqramı", "Xroniki böyrək çatışmazlığı üzrə Tədbirlər Proqramı", "Yolxucu xəstəliklərin immunoprofilaktikasına dair Tələblər Proqramı", "Onkoloji xəstələrin həyatı vacib şiş əleyhinə preparatlarla təminatı üzrə Tədbirlər Proqramı" proqramları hazırlanaraq uğurla icra edilmişdir.[2] Əgər 2005-ci ildə səhiyyədə dövlət büdcəsindən 110 milyon manat ayrılmışdırsa, 2006-cı ildə bu rəqəm 179 milyon, 2007-ci ildə 269 milyon, 2008-ci ildə 330 milyon manat təşkil etmişdir.[3] "Azərbaycan Respublikasının regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramına (2004-2008)" uyğun olaraq bölgələrdə 10-dan artıq beynəlxalq standartlara cavab verən müalicə diaqnostika mərkəzləri fəaliyyətə başlamışdır. Dövlət tərəfindən maliyələşdirilən səhiyyə xidmətlərinin alıcısı kimi, Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 27 dekabr

---

[1] Əliyeva İ. Regional Dövlət Proqramı bölgələrdə səhiyyənin inkişafına təkan verəcək // "Xalq qəzeti", 2009, 2 iyul.
[2] Azərbaycan Respublikasının tarixi (2003-2016), İlham Əliyev dövrü. II cilddə, II cild. Bakı: ATİB, 2016, 776-221.
[3] Əliyeva İ., Regional Dövlət Proqramı bölgələrdə səhiyyənin inkişafına təkan verəcək // "Xalq qəzeti", 2009, 2 iyul.

tarixili müvafiq Sərəncamı ilə yaradılmış Azərbaycan Respublikası Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət agentliyi kimi çıxış edəckdir.[4] Agentlik tibbi proflaktika reabilatisiya müəssisələr ilə münasibətləri müqavilələr əsasında tənzimləyəcəkdir.

**Respublikanın cənub-şərq bölgəsində səhiyyənin əsaslı inkişafı**

2004-2007-ci illərdə Lənkəran Mərkəzi Xəstəxanasının reanimasiya və uşaq cərrahiyyə şöbələri əsaslı təmir edilmiş, Şövu, Qrunba, Şağlaküçə, Xarxatan, Balıqçılar kəndlərində yeni feldşer məntəqələri və həkim ambulatoriyalar tikilib istifadəyə verilmişdir. İl ərzində rayon üzrə 6147 nəfər stasionar, 27080 nəfər xəstə ambulator müalicə almışdır.[5] Lənkəran rayonu üzrə səhiyyə sistemində mühüm infrastruktur mövcuddur. Müasir Regional Müalicə Diaqnostika Mərkəzi, Uşaq Sağlamlıq Mərkəzi, Mərkəzi Xəstəxana və onun nəzdində Perinatal Mərkəzinin imkanları hesabına tibbi xidmətin səviyyəsi xeyli yüksəlmişdir. 2008-ci il avqustun 11-də Lənkəran Regional Müalicə Diaqnostika Mərkəzi fəaliyyətə başlamışdır. Səhiyyə müəssisəsi beynəlxalq standartlara uyğun 2,7 milyon ABŞ dəyərində tibbi avadanlıqla təchiz edilmişdir. Tibbi avadanlıq Almaniyanın "Simens" şirkəti tərəfindən istehsal edilmişdir.[6] Bununla böyrək-ürək xəstəliklərinin diaqnostikası yüksək səviyyədə həyata keçiriləcəkdir. Yerli əhalinin Bakıya müalicəyə gəlməsinə ehtiyac qalmayacaq, yerli həkimlər bölgənin xəstələrinə xidmət göstərəcəkdir. Həmin ilin oktyabrın 8-də Lənkəranda Uşaq Sağlamlıq Mərkəzi istifadəyə verilmişdir. Mərkəz 47 min uşağa xidmət göstərəcək, burada 44 həkim və 91 orta tibb işçisi uşaqların sağlamlığının qorunmasında fəal iştirak edəcəkdir. Ümumi sahəsi 1000 $m^2$ olan Mərkəzin həyətində fəvvarə və işıqlandırılma sistemi quraşdırılmışdır.

2007-ci ildə Yardımlı rayon Mərkəzi Xəstəxanasının təmirinə 600 min manat vəsait ayrılmışdır. Mərkəzi Xəstəxanada 40 çarpayılıq cərrahiyyə, 60 çarpayılıq terapiya, 25 çarpayılıq uşaq, 20 çarpayılıq yoluxucu xəstəliklər, 10 çarpayılıq doğuş, 10 çarpayılıq ginekoloji palata, təcili və təxirə salınmaz yardım şöbəsi, laboratoriya, rentgen, fizioterapiya kabinetləri fəaliyyət göstərir. Yardımlı rayonu üzrə tibb

[4]Nəzərov İ. Azərbaycan səhiyyə sektoru: mövcud vəziyyət və inkişaf perespektivləri; biznes imkanlarının qiymətləndirilməsi və inkişafı baxımları; yekun hesabat. Bakı: ATİB, 2009, 71-48.
[5]Lənkəran Rayon İcra hakimiyyətinin cari arxivi, 2007-ci il üçün rayon icra hakiminin illik hesabatı.
[6]Lənkəranda Müalicə-Diaqnostika Mərkəzinin təməli qoyulmuşdur // "Xalq qəzeti", 2006, 9 sentyabr.

müəssisələrində 53 həkim, 135 orta tibb işçisi çalışır. 2007-ci ildə Ostayır kəndində həkim ambulatoriyası, Abidinli kəndində feldşer mama məntəqəsi tikilmiş, Bərcan və Arus kənd sahə xəstəxanaları əsaslı təmir edilmişdir. Rayon Mərkəzi Xəstəxanasının inventar və avadanlıqları yenilənərək, 1 ədəd çoxfunksiyalı travmatoloji, 2 ədəd çoxfunksiyalı cərrahi, 10 ədəd təkfunksiyalı çarpayılar, 20 ədəd dəmir çarpayı, 5 plastik, 40 ədəd sadə dolabça və s. tibbi avadanlıqlar alınmışdır. Mərkəzi Xəstəxananın təşəbbüsü ilə məktəblilər arasında vərəm xəstəliyinin profilaktikası məqsədilə 10 tuberklin sınağı aparılmış, "Hepatit B" əleyhinə, GBT əleyhinə, OPM əleyhinə, polimelit və vərəm əleyhinə peyvənd işləri görülmüşdür. 2007-ci ildə rayon tibb müəssisələrində 22000 çarpayı günü icra edilmiş, 2200 xəstə müalicə olunmuşdur.[7]

2008-ci ilin oktyabrın 7-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Masallı şəhərində akademik Zərifə Əliyeva adına Elmi Tətqiqat Göz Xəstəlikləri İnstitutunun filialının açılışını etmişdir. Burada 6 çarpayılıq palata, əməliyyat otağı, laboratoriya, ambulator qəbul və müayinə şöbələri fəaliyyət göstərir. Həkim kollektivi ilə görüşdə cənab İlham Əliyev demişdir: "Sizi təbrik edirəm. Burada gözəl şərait var. Bu yaxınlarda Bakıdakı xəstəxanada da belə gözəl şərait olacaqdır. Amma burada əsas vəzifə yerli həkimləri hazırlamaqdan ibarətdir. Əlbəttə ki, sizin təcrübəniz burada həlledici rol oynayacaqdır. Həm əməliyyatlar aparacaqsınız, həm də çalışın ki, burada yerli həkimləri də öyrədəsiniz, gələcəkdə hər bir bölgənin öz həkimləri bu işlərlə məşğul olmalıdırlar. Sizə uğurlar arzulayıram və bir daha təbrik edirəm".[8] Ölkə başçısının səhiyyə sistemində həyata keçirdiyi islahatlarda məqsəd əhalinin sağlamlığını qorumaq, bu sahənin beynəlxalq standartlara uyğun təşkil etməkdən ibarətdir. Masallı rayonu üzrə il ərzində 2911 nəfər uşaq doğulmuşdur ki, evdə doğuş ən aşağı səviyyədə 0,86 faiz olmuşdur. Uşaq ölümü isə 4,1 faiz olmuşdu ki, bunun da səbəbləri araşdırılaraq xəstəlikləri müəyyən edilmişdir. Vərəm xəstəliyi əleyhinə mübarizə aparılaraq 34224 nəfər uşağa mantu sınağı aparılmış, il ərzində 79 nəfərdə ilkin vərəm aşkar edilərək, xəstələr stasionar müalicəyə cəlb edilmişdir. İmtiyazlı qrupa daxil olan xəstələrin tibbi müayinəsi və müalicəsi əsaslı təşkil edilmiş, şəkərli diabet xəstəsi olan 2988 nəfər hər ay dərman pereparatları ilə ödənişsiz təmin edilmişdir. Rayon üzrə 561 vərəm, 125 xroniki böyrək çatışmazlığı, 634 onkoloji, 14 nəfər hemofiliya, 65 talassemiya xəstəsi dispanser qeydiyyatındadır. Onların sağlamlığının qorunması

[7]Yardımlı Rayon İcra Hakimiyyətinin cari arxivi, Yardımlı rayonu Mərkəzi Xəstəxanasının 2007-ci il üçün illik hesabatı.
[8]Masallıda Göz Xəstəlikləri İnstitutunun filialı açılmışdır // "Xalq qəzeti", 2008, 8, oktyabr.

məqsədilə həkim müayinələri keçirilir, dövlət hesabına tibbi əməliyyatlar həyata keçirilmişdir. Rayonun Hişkədərə, Kolatan, Miyanku, Xırmandalı, Mahmudavar kəndlərində həkim məntəqələri tikilərək istifadəyə verilmişdir.

2008-ci ildə Lerik rayonu üzrə 90 çarpayılıq bir mərkəzi rayon xəstəxanası, 15 çarpayılıq 6 kənd xəstəxanası, 19 həkim məntəqəsi, 51 tibb məntəqəsi fəaliyyət göstərir ki, onlarda da 66 həkim, 182 nəfər orta tibb işçisi çalışır. Mərkəzi rayon xəstəxanası 21 kəndə səyarı həkim briqadaları göndərmiş, müxtəlif xəstəliklərlə rayon mərkəzinə gələ bilməyən 256 xroniki xəstə aşkarlanaraq ambulator və stasionar müalicəyə cəlb olunmuşdur[9]. Rayon üzrə il boyu 1540 doğum qeydə alınmış, 0-1 yaş körpə ölümü 5 nəfər olmuşdur ki, bu da 0,3 faiz təşkil edir. “Onkoloji xəstələrin şişəleyhinə preparatlarla təmin edilməsi üzrə” Dövlət Proqramının icrası ilə əlaqədar Respublika Milli Onkologiya Mərkəzinin əməkdaşları Lerik rayonunda olmuş, 568 nəfər pasienti qəbul etməklə müayinələrdən keçirmiş, 32 nəfərdə şiş və şiş önü xəstəlikləri aşkarlanaraq müalicəyə cəlb edilmişlər. Səhiyyə Nazirliyi tərəfindən həyata keçirilən “Sağlamlıq aylığı” çərçivəsində rayon mərkəzi xəstəxanasında 16 nəfər xəstə üzərində cərrahi əməliyyatlar aparılmış, sağlamlıqları bərpa edilmiş, 620 pasient tibbi müayinələrə cəlb edilmişdir. İl boyu rayonun tibb müəssisələrində 5 törədici bağırsaq, 23 vərəm, 269 tənəffüs yollarının katarı, 13 qotur, 25 askaridos, 74 enterobioz xəstələri aşkarlanaraq müalicəyə cəlb edilmişdir.[10]

2009-cu ildə Astara rayonu üzrə əhaliyə bir mərkəzi xəstəxana, ambulator-poliklinika yardımı göstərən müalicə müəssisələrinin sayı 16-dır ki, bu tibb müəssisələrinin gücü 565 nəfər təşkil edir. Hər 1000 nəfər əhaliyə düşən gəlişlərin sayı il ərzində 55,5 nəfər olmuşdur. Rayon səhiyyə müəssisələrində 126 həkim, 483 orta tibb işçisi çalışır ki, əhalinin hər 1000 nəfərinə 12,8 həkim və 49 orta tibb işçisi düşür. İl boyu rayon tibb müəssisələrinə ambulator gəlişin sayı 36940 nəfər olmuş, çarpayı günü 38830 olmaqla, orta qalma 7,1 gün, çarpayı dövriyyəsi 3,2 olmuşdur. Rayon üzrə 1521 nəfər xəstə şəkərli diabet, 32 nəfər xəstə ağciyər xəstəlikləri, 63 nəfər xəstə onkoloji, 3 nəfər hemofiliya, 15 nəfər talassemiya xəstəliyi üzrə qeydiyyata alınmışdır.[11] Rayon üzrə yeni doğulmuş uşaqların yoluxucu xəstəliklərə qarşı vərəm əleyhinə 1150 nəfər,

---

[9]Lerik Rayon İcra Hakimiyyətinin cari arxivi, 2008-ci il üçün rayon icra hakiminin illik hesabatı.
[10]Lerik Rayon İcra Hakimiyyətinin cari arxivi, 2008-ci.,
[11]Astara Rayon İcra Hakimiyyətinin cari arxivi, Astara rayonu Mərkəzi Xəstəxanasının 2009-cu il üçün illik hesabatı.

hepatit B əleyhinə 1153 nəfər, göy öskürək, difteriya, tetanus əleyhinə 2240 nəfər, qızılca, polimelit, məxmərəyə qarşı 1855 nəfər peyvənd olunmuşdur.[12]

2012-ci il ərzində Yardımlı rayon üzrə imtiyazlı xəstələrə 81 min 900 manat dəyərində dərman və sarğı materialları verilmiş, 1589 nəfər stasionar müalicə və 184 nəfər cərrahi əməliyyat edilmişdir. Cərrahi əməliyyatlardan sonra ölüm hadisəsi qeydə alınmamışdır. Yeni doğulmuş uşaqlar arasında peyvəndə cəlb edilmə yaxşılaşmış, peyvəndlər uşaqların 95-96 faizinin əhatə etmişdir. 2012-ci il ərzində Yardımlı rayonunun tibb müəssisələrində 235 min 366 ambulator müraciət edilmiş və bu müalicələr vaxtında icra edilmişdir.[13] İl boyu Mərkəzi Xəstəxanaların təcili tibbi yardım şöbəsinə 7887 müraciət edilmiş, bu müraciət edənlərin 8301 nəfərinə vaxtında tibbi yardım göstərilmişdir. "Tibbi müayinə kartı sisteminin tətbiqi qaydalarının" təsdiq edilməsi haqqında qərarın icrası ilə əlaqədar uşaqlar üçün "Elektron sağlamlıq kartı" sistemindən istifadə edilir və 2012-ci ilə kimi 3315 uşağa elektron sağlamlıq kartı verilmişdir.[14] Vərəm xəstəliyinin erkən aşkarlanması və aşkar edilmiş xəstələrin vaxtımda müalicəyə cəlb edilməsi məqsədilə yeniyetmələr arasında mantu sınağı aparılması üçün 9900 doza tuberkulin ilə peyvənd aparılmış, 6900 nəfər rengenoloji müayinəyə cəlb edilmişdir. İl ərzində 37 xəstə ağır vəziyyətdə xəstəxananın müxtəlif şöbələrinə daxil olmuş, onlara müvafiq tibbi yardım göstərildikdən sonra Bakı şəhərinə-ixtisaslaşdırılmış xəstəxanalara göndərilmişdir. 2013-cü ildə Yardımlı rayonu üzrə şəkərli diabet 516 nəfər, vərəm 105, onkoloji 186, böyrək çatışmazlığı 13, ruhi-əsəb xəstəlikləri 561, hemofiliya 6, talassemiya xəstəliklərinə görə 10 nəfər qeydiyyatda durur. Xəstələrin sosial müdafiəsinin və sağlamlığını qorumaq məqsədilə il ərzində 90265 manat məbləğində dərman preparatları onlara pulsuz verilmişdir.[15] Rayon üzrə xəstəxanalara 1391 xəstə stasionar müalicə edilmiş, 147 xəstə üzərində müxtəlif cərrahi əməliyyatlar icra edilmişdir. Zöhrəvi xəstəliklərin aşkar edilməsi məqsədilə 990 müayinə aparılmış, rayon üzrə müxtəlif müayinələrə 1238 nəfər cəlb edilmiş, ümumilikdə 21224 laborator müayinə icra edilmişdir. 2013-cü il dekabrın 1-də Səhiyyə Naziri Oktay Şirəliyevin müvafiq əmrinə əsasən uşaqlar arasında aparılan peyvənd proqramına daha bir peyvənd-pnevmakok əlavə edilmiş, hal-hazırda respublikada olduğu kimi rayonda da peyvəndlərin sayı 11-ə çatdırılmışdır.[16]

[12]Astara Rayon İcra Hakimiyyətinin cari arxivi. ..,
[13]Yardımlı Rayon İcra Hakimiyyətinin cari arxivi, 2012-ci il üçün rayon icra hakiminin illik hesabatı.
[14]Yardımlı Rayon İcra Hakimiyyətinin cari arxivi..,
[15]Yardımlı Rayon İcra Hakimiyyətinin cari arxivi. 2013-cü il üçün rayon icra hakiminin illik hesabatı.
[16]Yardımlı Rayon İcra Hakimiyyətinin cari arxivi..,

2010-ci ildə Lənkəran Mərkəzi Xəstəxanasında 40 min manatlıq əsaslı, 16199 manatlıq cari təmir işləri görülmüşdür; il ərzində 38861 manatlıq tibbi avadanlıq alınmış, rayon əhalisinə 285996 manatlıq pulsuz dərman verilmişdir. 2010-cu il ərzində 270880 nəfər xəstə ambulator müalicə almışdır.[17] Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin göstərişinə əsasən respublika səviyyəsində əhalinin ümumi profilaktik müayinəyə cəlb edilməsi işi təşkil olunmuşdur. Rayon üzrə əhalinin müayinə olunması Lənkəran Mərkəzi Rayon Xəstəxanasının Konsultativ Poliklinika şöbəsinə və Lənkəran Müalicə Diaqnostika Mərkəzinə həvalə olunmuşdur. Kənd əhalisinin müayinədən keçməsi üçün ixtisaslı həkimlərdən ibarət briqadalar təşkil edilmiş, yaşayış məntəqələrinə göndərilmişdir.[18] Ümumilikdə 144104 nəfər tibbi müayinədən keçirilmiş, 4871 nəfər ambulator, 946 nəfər stasionar müalicəyə qəbul olunmuş, 204 nəfər müalicə məqsədilə Bakı şəhərinin ixtisaslaşdırılmış xəstəxanalarına göndərilmişdir. Rayonda Ağciyər Xəstəlikləri Xəstəxanası əsaslı təmir olunmuş, Ruhi Əsəb Xəstəlikləri Xəstəxanası tikilib istifadəyə verilmişdir. "Kənd İnvestisiya layihəsi" hesabına Kosalar kəndində həkim ambulator məntəqəsi və Biləsər kənd həkim tibb məntəqəsi tikilib istifadəyə verilmişdir. Lənkəran rayon əhalisinin sağlamlığını qorumaq məqsədilə 12 xəstəxana, 47 ambulator-poliklinika müəssisəsi fəaliyyət göstərir ki, tibb müəssisələrində 480 həkim, 1124 orta tibb işçisi çalışmışdır. Rayon əhalisinin hər 10000 nəfərinə 22 həkim, 51,5 orta tibb işçisi, 30,3 xəstəxana çarpayısı düşür.[19] Əhalinin sağlamlığının qiymətləndirilməsinin əsas göstəricilərindən biri də xəstələnmə hallarının olmasıdır. Rayon üzrə qeydiyyata alınmış xəstəliklər arasında qan dövranı, həzm sistemi, tənəffüs orqanları xəstəlikləri üstünlük təşkil edir.

2014-cü ildə Masallı rayonu üzrə 2849 uşaq doğulmuşdur ki, evdə doğuş son illərdə ən aşağı səviyyədə 0,5 promil (14 nəfər) uşaq ölümü isə 2,8 promil (8 nəfər) olmuşdur. İl ərzində rayon üzrə qeydiyyatda olan 4494 şəkərli diabet, 553 vərəm, 112 talassemiya xəstəsinin sağlamlığını qorumaq məqsədilə həkim müayinələri keçirilmiş, imtiyazlı təbəqə dərman preparatları ilə təmin edilmişdir.[20] Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamına əsasən 2014-cü il fevralın 17-dən mayın 1-dək "Əhalinin tibbi müayinə" kampaniyası Masallı rayonu üzrə uğurla

[17]Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Cəlilabad rayonunun statistik göstəriciləri (2007-2012). Cəlilabad - 2013, 109.
[18]Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2013, 109.
[19]Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Lənkəran rayonunun statistik göstəriciləri (2009-2013), Lənkəran - 2014, 65, 46.
[20]Masallı Rayon İcra Hakimiyyətinin cari arxivi, 2014-cü il üçün rayon icra hakiminin illik hesabatı.

həyata keçirilmişdir. 2014-cü ilin fevralın 17-dən aprelin 1-ə kimi Masallı rayonu Mərkəzi Xəstəxanasında 18 yaşdan yuxarı 80512 nəfər tibbi müayinədən keçmiş, 47506 nəfər müxtəlif yardımçı-diaqnostik, exokardioqrafiya müayinə olunmuş, 2714 nəfər də müxtəlif xəstəliklər aşkar olunmuşdur. Rayon üzrə 2538 nəfər ambulator, 186 nəfər stasionar müalicəyə cəlb edilmiş, 161 xəstə Bakı şəhərinə ixtisaslaşdırılmış xəstəxanalara göndərilmişdir.[21] Göz xəstəlikləri olan 22 xəstə akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin Masallı filialında cərrahiyə əməliyyatı olunmuşdur. Xəstələrdən 427 nəfəri rayon Mərkəzi Xəstəxanası tərəfindən dərman preparatları ilə pulsuz təmin edilmişdir. Müayinə müddəti ərzində 28564 uşaq müayinə olunmuş, 1724 uşaqda müxtəlif xəstəliklər aşkar edilmək üzrə müalicəyə cəlb edilmişdilər. 2014-cü il ərzində Masallı rayonu üzrə xəstəxanalarda çarpayıların sayı 315 ədəd, işçilərin sayı 1004 nəfər olmuşdur. Səhiyyə sahəsində çalışanlara verilmiş əmək haqqının ümumi həcmi 1854 min manat, bir işçiyə hesablanmış orta aylıq əmək haqqı 153,8 manat olmuşdur. Bu da keçən illə müqayisədə 10,4 manat və ya 7,2 faiz çox olmuşdur.[22]

2010-cu il aprelin 28-də əhalinin sağlamlığının qorunması məqsədilə Cəlilabad şəhərində Müalicə Diaqnostika Mərkəzi fəaliyyətə başlamışdır. Mərkəzin qəbul, hemodializ, poliklinika, şüa-diaqnostika, laboratoriya, cərrahiyyə aneztezalogiya, reanimasiya, əməliyyat bloku, sterləşdirmə blokunda yüksək ixtisaslı həkimlər xəstələrin sağlamlığının bərpa edilməsinə kömək göstərəcəklər. Burada 10 dəst hemodializ aparatı quraşdırılmışdır ki, böyrək çatışmazlığından əziyyət çəkən 60 xəstə vaxtı-vaxtında hemodializ seansları alacaqdır.[23] 2012-ci ildə Cəlilabad rayonu üzrə 9 xəstəxana, 38 ambulator-tibb məntəqəsi fəaliyyət göstərir ki, bu səhiyyə müəssisələrində 253 həkim və 674 orta tibb işçisi fəaliyyət göstərir. Əhalinin hər 10000 nəfərinə 12,5 həkim, 33,4 nəfər orta tibb işçisi düşür. Rayon üzrə qeydiyyata alınmış xəstəliklər arasında tənəffüs orqanları, qan dövranı, həzm orqanları, yoluxucu və parazitar xəstəliklər üstünlük təşkil edir.[24] Belə ki, tənəffüs orqanlarının xəstəlikləri bütün xəstəliklərin 70,5 faizini, yoluxucu və parazitar xəstəliklər 1 faizini, həzm orqanlarının xəstəlikləri 5,9 faizini, qan dövranı sisteminin xəstəlikləri isə 4,6 faizini

[21] Masallı Rayon İcra Hakimiyyətinin cari arxivi, 2014-cü il üçün rayon icra hakiminin illik hesabatı.
[22] Yardımlı Rayon İcra Hakimiyyətinin cari arxivi, Yardımlı rayonu Mərkəzi Xəstəxanasının 2007-ci il üçün illik hesabatı, 59.
[23] Prezident İlham Əliyev Cəlilabad Müalicə-Diaqnostika Mərkəzinin açılışında iştirak etmişdir // "Xalq qəzeti", 2010, 1 may.
[24] Azərbaycan Respublikasının Dövlət Statistika Komitəs, Cəlilabad rayonunun statistik göstəriciləri (2007-2012). Cəlilabad - 2013, 109, 71.

təşkil etmişdir. Rayon üzrə əhalinin xəstəliklərinin siniflər və qruplar üzrə strukturunda birinci yeri tutan tənəffüs orqanlarının xəstəlikləri arasında yuxarı tənəffüs orqanlarının yoluxması xəstəliklərini daha çox üstünlük təşkil edir.

2012-ci il martın 13-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Astara Rayon xəstəxanasının əsaslı təmir və yenidənqurmasından sonra açılışında iştirak etmişdir. Beynəlxalq standartlara uyğun təmir edilən 90 çarpayılıq xəstəxana rayon əhalisinin sağlamlığının qorunmasına kömək göstərəcəkdir. Xəstəxanada qəbul, mama-ginekologiya, əməliyyat bloku, yeni doğulmuş uşaqlar üçün intensiv terapiya palatası, ultrasəs müayinə kabineti, cərrahiyyə, reanimasiya, terapiya kimi şöbələr yerli əhalinin sağlamlığının bərpa edilməsinə kömək göstərəcəkdir. Rayonun Pensər, Şiyəkəran kənd tibb məntəqələri əsaslı təmir edilərək kənd əhalisinə xidmət göstərir. 2013-cü il dekabrın 10-u cənab İlham Əliyevin imzaladığı Sərəncam ölkə əhalisinin tibbi müayinəsi və uşaqların dispanseriyasının təşkil edilməsi işini daha da gücləndirdi. Sərəncama uyğun olaraq respublikanın bütün yaşayış yerlərində kütləvi şəkildə əhalinin tibbi müayinələri təşkil edilmişdir. 2014-cü il ərzində Astara rayon Mərkəzi Xəstəxanasında "Əhalinin kütləvi dispanseriyası" proqramı çərçivəsində 82016 nəfər tibbi müayinədən keçirilmiş, onlardan 71122 nəfəri yaşlı, 10894 nəfəri isə uşaq kontingenti olmuş, müayinələr nəticəsində 10848 nəfər də ilkin xəstəlik əlamətləri aşkar edilərək, xəstələr ambulator və stasionar müalicəyə cəlb edilmişlər.[25]

2010-cu il iyulun 25-də Lerik rayon Mərkəzi Xəstəxanası əsaslı təmir və yenidənqurmadan sonra istifadəyə verilmişdir. Dörd mərtəbəli ümumi sahəsi 2100 $m^2$ olan 90 çarpayılıq xəstəxana müasir tipli tibbi avadanlıqla təchiz edilmişdir. Xəstəxana reanimasiya, cərrahiyyə və müxtəlif şöbələrdə 20 çarpayılıq 12 palatada 200 həkim və tibb işçisi xəstələrinə xidmət göstərmişdir. 2014-cü il ərzində Lerik rayonu Haftoni, Tikəband, Piran, Lərmərud, Boykəndil, Biləband, Nuravud kənd həkim məntəqələri, Əliabad, Qosmalyan, Peştətük, Çayrud xəstəxanalarında əsaslı təmir işləri aparılmış, 6 ədəd yeni stamatoloji dəst, profilaktik peyvəndləri müvafiq stabil temperaturda saxlamaq üçün 22 ədəd tək kameralı soyuducu, eşitmə orqanlarının funksiyasını yoxlamaq üçün audimetr, 5 ədəd komputer, 1 ədəd dustasion fluroqrafiya aparatı alınaraq təyinatı üzrə xəstəxanalara təhvil verilmişdir.[26] Lerik rayon Mərkəzi Xəstəxanası tərəfindən il ərzində 24 kəndə səyyar həkim briqadaları göndərilmiş,

[25]Astara Rayon İcra Hakimiyyətinin cari arxivi, 2014-cü il üçün rayon icra hakiminin illik hesabatı.
[26]Lerik Rayon İcra Hakimiyyətinin cari arxivi, 2014-cü il üçün rayon icra hakiminin illik hesabatı.

müayinələr nəticəsində 289 xəstə aşkarlanaraq ambulator və stasionar müalicəyə cəlb edilmişdir.[27] Lerik rayonu üzrə 887 nəfər şəkərli diabet xəstələrinə il ərzində fasiləsiz olaraq müxtəlif dərmanlar və qlükometr testi ilə təmin edilmişdir. Rayon üzrə gigiyena və epidemiologiya mərkəzində 96 sanitar bakteriologiya üzrə, 939 malyariya üzrə qan yaxmasına baxılmış və nəticələrə uyğun xəstələrə kömək göstərilmişdir. 2014-cü il ərzində rayonda müayinələr nəticəsində 22 törədicisi məlum olan bağırsaq, 36 vərəmli, 557 tənəffüs yolları katarı, 11 qoturluq, 136 askaridor, 81 enteriobuz xəstələri aşkar olunaraq müalicəyə cəlb olmuşlar.[28] Lerik rayonu üzrə 2014-cü il ərzində əhalinin hər 10000 nəfərinə bütün xəstəliklər üzrə yoluxucu və parazit xəstəlikləri 231, yeni törəmələr 7, endomik sistemin, qida qəbuletmənin, maddələr mübadiləsinin və immunitetin pozulması 4,1, qan və qanyaradıcı orqanların xəstəlikləri 459, əsəb sisteminin və hissiyyat orqanlarının xəstəlikləri 371, qan dövranı sisteminin xəstəlikləri 329,9, tənəffüs orqanlarının xəstəlikləri 367,1, həzm orqanlarının xəstləlikləri 215,7, dərinin və dərialtı toxumalarının xəstəlikləri 38,1 nəfər olmuşdur.[29]

2015-ci il Yardımlı rayonu üzrə 578 şəkərli diabet, 510 ruhi-əsəb, 185 onkoloji, 112 vərəm, 13 talassemiya, 8 hemofiliya, 15 xroniki böyrək çatışmazlığı xəstələrinə pulsuz dərman və sarğı materialları verilmiş, tibbi müayinələrə cəlb edilmiş, həkim nəzarətində müalicə almışlar. İl boyu bütün imtiyazlı xəstələrə 101316 manatlıq dərman preparatları ilə təmin edilmişdir. Rayon üzrə 1796 nəfər xəstə stasionar müalicə edilmiş, 152 xəstə üzərində cərrahiyyə əməliyyatı keçirilmişdir. Dispanseriyasiya zamanı rayon üzrə 35036 nəfər müayinə edilmiş, onlardan 735 nəfər ultra səs müayinəsinə, 478 nəfər elektrokardioqrafiya, 2133 nəfər laboratoriya, 948 nəfər rentgen müayinəsinə cəlb edilmişdir.[30] Müayinələrin nəticələrinə uyğun olaraq 2025 nəfər ambulator, 92 nəfər stasionar müalicə edilmiş, 126 nəfər Bakı şəhərinə ixtisaslaşdırılmış xəstəxanalara göndərilmişdir. Yeniyetmələr arasında vərəmin erkən aşkar edilməsi məqsədilə 12026 nəfərə mantu sınağı aparılmış, aşkar edilən xəstələr vaxtında müalicəyə cəlb edilmişdilər.[31] Rayonun Yolucaq və Kürəkçi kənd həkim məntəqələri təmir edilərək, kənd əhalisinin sağlamlığının qorunmasına xidmət göstərir. Yardımlı rayonu üzrə əhalinin hər 10000 nəfərinə 8,5 həkim, 18,9 orta tibb işçisi, 21,1 xəstəxana çarpayısı

---

[27]Lerik Rayon İcra Hakimiyyətinin cari arxivi…,

[28]Lerik Rayon İcra Hakimiyyətinin cari arxivi...,

[29]Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Lerik rayonunun statistik göstəriciləri (2009-2013), Lerik-2014, 74,32.

[30]Yardımlı Rayon İcra Hakimiyyətinin cari arxivi, Yardımlı Rayon Mərkəzi Xəstəxanasının 2015-ci il üçün illik hesabatı.

[31]Yardımlı Rayon İcra Hakimiyyətinin cari arxivi..,

düşür ki, əvvəlki ilə nisbətən müqayisədə həkimlərin sayı 1 nəfər, orta tibb işçilərin sayı 5 nəfər çoxalmışdır.[32]

2016-cı ildə Masallı rayonu üzrə yoluxucu xəstəliklərə qarşı mübarizə işi aparılmış il ərzində 2510 uşağa vərəm əleyhinə, 1734 nəfər uşağa hepatit B əleyhinə, 12368 nəfər uşağa göy öskürək əleyhinə, 7019 nəfər uşağa qızılca əleyhinə, 9519 nəfər uşağa polimelit əleyhinə peyvəndlər vurulmuşdur. İl ərzində rayonda 164874 nəfər tibbi müayinədən keçirilmişdir ki, müayinələr nəticəsində 5925 nəfər xəstə aşkar edilmiş, onlardan 5635 nəfər ambulator, 288 nəfər stasionar müalicəyə cəlb edilmişdir.[33] İl ərzində uşaqların dispanseriyası həyata keçirilmiş, 45496 uşaq müayinəyə cəlb edilmiş, 2580 nəfərdə müxtəlif xəstəliklər aşkar edilərək dispanser qeydiyyatına götürülmüş və müalicəyə cəlb edilmişdilər. Rayon üzrə 112 nəfər xroniki böyrək çatışmazlığı xəstəsi vardır ki, onlardan 11 nəfəri dövlət hesabına hemodializ edilir.[34] 2015-ci ildən başlayaraq rayonda nigaha daxil olan cütlüklərin tibbi müayinə ilə əlaqədar 4280 nəfərin qan nümunəsi müayinə edilməsi nəticəsində 96 nəfərdə talassemiya, 3 nəfərdə QİÇS, 8 nəfərdə sifilis xəstəlikləri aşkar edilmişdir. Rayonun Boradigah qəsəbəsində 15 çarpayılıq, Kalinovka kənd sahə xəstəxanaları əsaslı təmir edilmiş, 17 həkim və tibb məntəqəsi yenidən tikilərək istifadəyə verilmişdir.[35]

2017-ci ildə Yardımlı rayonu üzrə 49068 nəfər müayinəyə cəlb edilmiş, onlardan 45212 nəfər sağlam, 3599 nəfər ambulator, 164 nəfər stasionar müalicəyə cəlb edilmişdir.[36] Yardımlı Rayon Mərkəzi Xəstəxanasında təmir işləri aparılmış, təcili tibbi yardım şöbəsi yenidən qurulmuş, müasir tibbi avadanlıqla təmin edilmişdir. Rayonun Avaş və Honuba kənd tibb məntəqələri müasir tibbi avadanlıqla təchiz edilmişdir.

2017-ci ilin altı ayı ərzində Astara Rayon Mərkəzi Xəstəxanasının cərrahiyyə şöbəsində 124 xəstə üzərində cərrahiyyə əməliyyatı aparılmış, bunların 79-u təxirəsalınmaz, 45-i isə planlı həyata keçirilmişdir. Dövr ərzində 11813 nəfər xəstəyə imtiyazlı resept yazılmış, pulsuz dövlət hesabına dərmanla təmin edilmişdir.[37] Astara Rayon Mərkəzi Xəstəxanası tərəfindən Lənkəran Qan Bankından müxtəlif qan qruplardan olan 139 plazma alınaraq anemiyalı xəstələrə vurulmuşdur.

[32]Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Yardımlı rayonunun statistik göstəriciləri (2007-2012), Yardımlı-2013, 76, 32.
[33]Masallı Rayon İcra Hakimiyyətinin cari arxivi, 2016-cı il üçün rayon Mərkəzi Xəstəxanasının illik hesabatı.
[34]Masallı Rayon İcra Hakimiyyətinin cari arxivi, 2016-cı il üçün rayon Mərkəzi Xəstəxanasının illik hesabatı.
[35]Masallı Rayon İcra Hakimiyyətinin cari arxivi, 2015-ci il üçün rayon icra hakiminin illik hesabatı.
[36]Yardımlı Rayon İcra Hakimiyyətinin cari arxivi, 2017-ci il üçün rayon Mərkəzi Xəstəxanasının illik hesabatı.
[37]Astara Rayon İcra Hakimiyyətinin cari arxivi…,

## Nəticə

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə səhiyyə sahəsində həyata keçirilən islahatlar nəticəsində bölgəyə yeni tibb müəssisələri yaranmış səhiyyə müəssisələri müasir tibbi avadanlıqlarıyla təchiz edilmişdir. Dövlət vəsaiti hesabına istismara yarasız şəhər, qəsəbə, kənd xəstəxanalar əsaslı təmin edilərək, yenidən fəaliyyətə başlamışdır. Bölgənin yeddi rayon mərkəzi xəstəxanası əsaslı təmir olunaraq, tam tibbi avadanlıqla təchiz edilmiş, iki müasir standartlara uyğun diaqnostika mərkəzi açılmış, 60-dan çox kənd tibb məntəqələri yenidən qurulmuşdur. Bölgə əhalisinin sağlamlığını qorumaq məqsədilə səhiyyə orqanları kompleks tədbirlər həyata keçirmiş, əhalinin müayinəsi təşkil edilərək, aşkar edilmiş xəstəliklərin yerindəcə müalicəsi aparılmışdır.

**Ədəbiyyat**

Prezident İlham Əliyev Cəlilabad Müalicə-Diaqnostika Mərkəzinin açılışında iştirak etmişdir // "Xalq qəzeti", 2010, 1 may.

Azərbaycan Respublikasının tarixi (2003-2016). İlham Əliyev dövrü. 2 cilddə, II cild. Bakı: ATİB, 2016, 776.

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Cəlilabad rayonunun statistik göstəriciləri (2007-2012). Cəlilabad – 2013.

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Yardımlı rayonunun statistik göstəriciləri (2007-2012). Yardımlı-2013.

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Lerik rayonunun statistik göstəriciləri (2009-2013). Lerik-2014.

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Lənkəran rayonunun statistik göstəriciləri (2009-2013). Lənkəran – 2014.

Əliyeva İ. Regional Dövlət Proqramı bölgələrdə səhiyyənin inkişafına təkan verəcək // "Xalq qəzeti", 2009, 2 iyul.

Lənkəran Rayon İcra hakimiyyətinin cari arxivi. 2007-ci il üçün rayon icra hakiminin illik hesabatı.

Lənkəranda Müalicə-Diaqnostika Mərkəzinin təməli qoyulmuşdur // "Xalq qəzeti", 2006, 9 sentyabr.

Yardımlı Rayon İcra Hakimiyyətinin cari arxiv, Yardımlı rayonu Mərkəzi Xəstəxanasının 2007-ci il üçün illik hesabatı.

Masallıda Göz Xəstəlikləri İnstitutunun filialı açılmışdır. // "Xalq qəzeti", 2008, 8, oktyabr.

Masallı Rayonu İcra Hakimiyyətinin cari arxivi, Masallı rayonu Mərkəzi Xəstəxananın 2008-ci il üçün illik hesabatı.

Lerik Rayon İcra Hakimiyyətinin cari arxivi, 2008-ci il üçün rayon icra hakiminin illik hesabatı.

Astara Rayon İcra Hakimiyyətinin cari arxivi, Astara rayonu Mərkəzi Xəstəxanasının 2009-cu il üçün illik hesabatı.

Yardımlı Rayon İcra Hakimiyyətinin cari arxivi, 2012-ci il üçün rayon icra hakiminin illik hesabatı.

Yardımlı Rayon İcra Hakimiyyətinin cari arxivi, 2013-cü il üçün rayon icra hakiminin illik hesabatı.

Lənkəran Rayon İcra Hakimiyyətinin cari arxivi, Lənkəran Rayon Mərkəzi Xəstəxanasının 2010-cu il üçün hesabatı.

Masallı Rayon İcra Hakimiyyətinin cari arxivi, 2014-cü il üçün rayon icra hakiminin illik hesabatı.

2014 – Masallı sosial-iqtisadi inkişaf. Masallı Rayon İcra Hakimiyyəti, Masallı-2015.

Nəzərov İ. Azərbaycan səhiyyə sektoru: mövcud vəziyyət və inkişaf perspektivləri; biznes imkanlarının qiymətləndirilməsi və inkişafı baxımları; yekun hesabat, Bakı: ATİB, 2009.

Astara Rayon İcra Hakimiyyətinin cari arxivi, 2014-cü il üçün rayon icra hakiminin illik hesabatı.

Lerik Rayon İcra Hakimiyyətinin cari arxivi. 2014-cü il üçün rayon icra hakiminin illik hesabatı.

Yardımlı Rayon İcra Hakimiyyətinin cari arxivi. Yardımlı Rayon Mərkəzi Xəstəxanasının 2015-ci il üçün illik hesabatı.

Masallı Rayon İcra Hakimiyyətinin cari arxivi, 2016-cı il üçün rayon Mərkəzi Xəstəxanasının illik hesabatı.

Masallı Rayon İcra Hakimiyyətinin cari arxivi, 2015-ci il üçün rayon icra hakiminin illik hesabatı.

Yardımlı Rayon İcra Hakimiyyətinin cari arxivi, 2017-ci il üçün rayon Mərkəzi Xəstəxanasının illik hesabatı.

Astara Rayon İcra Hakimiyyətinin cari arxivi, 2017-ci il üçün rayon Mərkəzi Xəstəxanasının illik hesabatı.